**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 1**

**Bakı şəhəri** **14 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Kamal İlham oğlu Abdullayevin Yardımlı Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il dekabr ayının 11-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Abdullayev Kamal İlham oğlu Yardımlı Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2024-cü il sentyabr ayının 23-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2024-cü il dekabr ayının 11-də Dövlət Statistika Komitəsinin nümayəndəsi Sənaye statistikası şöbəsinin müdiri Elman Qasımzadə, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi İmaməli Rzayev və müstəqil ekspert İsmayıl Həsənovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Abdullayev Kamal İlham oğluna müsahibə komissiyasının üzvlərindən E.Qasımzadə 16 bal, İ.Rzayev və İ.Həsənov 14 bal vermiş və nəticədə iştirakçı 14,7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 13.12.2024-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edildiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Abdullyev Kamal İlham oğlunun Yardımlı Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il dekabrın 11-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: